# Azərbaycan

# Cənubi Qafqazın qüdrətli, aparıcı dövlətinə çevrilib

*14 iyul 1969-cu il Azərbaycanın həyatında mühüm bir tarixdir. Bu tarix, həmçinin yaşadığımız regionun daimi sülhə, hüzura doğru inkişafının bünövrəsidir, tərəqqi yolunun başlanğıcıdır.*

Dünyaşöhrətli dahi siyasi xadim, dövlətçilik tariximizdə mühüm yer tutan, tarixin axarını öz iradəsinə tabe etdirə bilən, realist və praqmatik düşüncəyə sahib böyük şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövr Ermənistanın əsassız ərazi iddialarına və erməni separatizminə qarşı mübarizənin əsas mərhələsi oldu.

Ulu Öndər Qarabağ münaqişəsinin həlli istiqamətində məqsədyönlü siyasət həyata keçirdi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası üçün mühüm addımlar atdı.

1992-1993-cü illərdə Ermənistanın hərbi birləşmələri keçmiş Dağlıq Qarabağ ərazisini və digər 7 rayonu - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanı işğal etdi. Birmənalı şəkildə demək olar ki, "Dağlıq Qarabağ problemi" Azərbaycanın müstəqilliyinə mane olmaq, onu öz təsir dairəsində saxlamaq istəyən dövlətlərin irticaçı qüvvələrin yaratdıqları münaqişə obyekti kimi çox böyük bəlalara səbəb oldu.

Azərbaycanı bölüb parçalamaq istəyən xarici irticaçı qüvvələrin planlar hazırladığı və həyata keçirmək istədiyi bir dövrdə hakimiyyətə gələn Heydər Əliyev milli dövlətçiliyimizi xilas etdi.

Tarixin ahəngini yaxşı bilən, balanslaşdırılmış xarici siyasət yürüdən dahi şəxsiyyət Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı tarixi inkişafın, obyektiv ictimai-siyasi prosesin məntiqi nəticəsi idi. Qısa zaman kəsiyi Heydər Əliyev şəxsiyyətinin qüdrətini, onun öz xalqının və milli dövlətçiliyinin keşiyində dayanan Azərbaycanı müdhiş uçurumdan xilas edən müdrik strateq olduğunu təsdiq etdi.

1993-cü ilin ikinci yarısından etibarən Ümummilli Lider Heydər Əliyev respublikamızın müstəqillik və təhlükəsizlik problemlərini beynəlxalq təşkilatlar vasitəsilə Ümum-Avropa təhlükəsizliyi fonuna çıxararaq regionda sülhün bərqərar olmasını sürətləndirdi. Beynəlxalq və regional təşkilatlarda münaqişə haqqında əsl həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzkar kimi tanıdılmasına, Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına nail olundu və bu təşkilatların yığıncaqlarında münaqişənin həlli yollarına dair qərarlar qəbul edildi.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı 4 qətnamə qəbul edildi. Təəssüf ki, bu qətnamələr nəticəsiz qaldı. Bu, BMT-də və onun Təhlükəsizlik Şurasında mövcud ikili standartların olduğunu göstərdi. Azərbaycan Prezidenti Heydər Əliyev beynəlxalq və regional təşkilatların tribuna və kuluarlarından erməni işğalçılığını məntiqi şəkildə əsaslandıran konstruktiv çıxışlar üçün maksimum istifadə etdi. Keçmiş Ermənistan-Azərbaycan Qarabağ münaqişənin əsl mahiyyəti haqqında dünya dövlətlərini lazımınca məlumatlandırdı, ayrı-ayrı dövlətlərin, regional təşkilatların Ermənistanın mövqeyini pisləyən qərarların, bəyanatların qəbul edilməsinə nail oldu.

Ölkəmizin ətrafında baş verənləri, başımızın üstünü alan qara buludları görən, prosesləri uzaqgörənliklə dərk edən Heydər Əliyev Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunması və işğalçıların ölkə ərazisindən çıxarılmasının düzgün yolunu müəyyənləşdirdi. Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri oldu.

Azərbaycan dövləti və hökuməti bu dövrdə bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi. Respublikamızın ərazi bütövlüyü prinsipinə uyğun olaraq keçmiş Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi probleminə beynəlxalq dəstəyi təmin etdi.

Heydər Əliyev Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin dünya səviyyəsinə çıxarılması və Azərbaycan dövlətinin bu taleyüklü məsələsinin həlli üçün xüsusi konsepsiya hazırlayaraq konkret vəzifələri həyata keçirən ardıcıl siyasi kurs müəyyənləşdirdi. Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu, ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin kəskinləşməsinə təkan verən təhlükəli bir hərəkət olduğunu sübut etdi, dünya ictimaiyyətinin diqqətini belə təhlükələrin qarşısını vaxtında almağın vacibliyinə yönəltdi. Beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat başlandı. Beynəlxalq görüşlərdə və danışıqlarda Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi ön sıraya çıxarıldı.

Avropa Şurasında da Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi müzakirə obyektinə çevrildi. Avropa Şurasının Parlament Assambleyasında Qarabağ münaqişəsi və erməni təcavüzü ilə bağlı məsələ dəfələrlə müzakirə olundu.

Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Heydər Əliyev irsinin milli inkişafımıza yönəlmiş dəyərlərindən bəhrələnərək, ökənin inkişafında mətin addımlar ataraq bütün uğurların Ulu Öndərin adı ilə bağlı olduğunu bildirdi.

Nəhayət, Azərbaycan Respublikasının ərazi bütövlüyü Prezident İlham Əliyevin qətiyyətli liderlik məharəti ilə tam bərpa olundu. Eyni zamanda ata vəsiyyətini də yerinə yetirdi. Bununla da Ermənistanın, bəzi beynəlxalq təşkilatların və söz sahibi olan böyük dövlətlərin qeyri-konstruktiv mövqeyi nəticəsində həllini tapa bilməyən Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə son qoyuldu. Bu münaqişə Azərbaycan Ordusunun 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu məğlub etməsi ilə sona çatdı.

**Qasım HACIYEV,**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu Qafqaz tarixi şöbəsinin müdiri, t.e.d., professor.**

Respublika.- 2025.- 16 iyul (№ 144).-